# Azərbaycan Basketbol Federasiyasının Məşqçilərin fəaliyyəti üçün təlimatı

## I Məqsəd və vəzifələr

**Məqsəd:**

**Maddə 1.1.** – (1) Bu təlimat klublarda fəaliyyət göstərəcək basketbol məşqçilərinin fəaliyyət qaydalarını və iş prinsiplərini təyin etmək üçün hazırlanmışdır.

**Vəzifə:**

**Maddə 1.2.** - Bu Təlimat basketbol üzrə məşqçiləri və məşqçilərin müqaviləsi olan klubları əhatə edir.

## II Ümumi müddəalar

**Məşqçinin vəzifələri**

**Maddə 2.1.**-Məşqçilərin çalışa biləcəyi liqalar və onların fəaliyyət göstərəcəkləri sahələr Federasiya tərəfindən təyin olunur.

**2025-2026 mövsümündən meydana çıxma qaydaları:**

**Maddə 2.2.** - Basketbol yarışlarında çalışacaq bütün kateqoriyalar üzrə məşqçilərdən lisenziyanın olması məcburidir və həmin lisenziyaların 2025-2026 mövsümündən başlayaraq hər mövsüm lisenziyanı (üzvlülük rüsumu ödənilməklə) təsdiqlənməsi tələb olunur. Lisenziyası olmayan və ya Lisenziyanı (üzvlülük rüsumu ödənilməklə) təsdiqlənməyən məşqçilər həmin mövsümdə heç bir kateqoriyada fəaliyyət göstərə bilməzlər.

Azərbaycan vətəndaşı və ya xarici ölkə vətəndaşı olmasından asılı olmayaraq; Məşqçi eyni mövsümdə, eyni vaxtda, eyni kateqoriyada yalnız bir (1) komandada fəaliyyət göstərə bilər.

**Məşqçi lisenziyası hansı hallarda qeyri-aktiv olur**

**Maddə 2.3.** - Məşqçilərdən fəaliyyət göstərdikləri mövsüm üçün ən azı bir (1) məşqçilik seminarında iştirak etmələri (A kateqoriyası daxil deyil) və fəaliyyət göstərdikləri mövsüm ərzində üzvlük prosedurlarını tamamlamaları tələb olunur. Bu şərtlərə cavab verməyən məşqçilərin lisenziyaları “Passiv Lisenziya” statusu alır. Məşqçilər məşqçilərin təkmilləşdirmə seminarında iştirak edərlərsə, onlar "Aktiv

ABF 2025/2026

Lisenziya" statusu qazanır və lisenziyaları təsdiqləndikdən sonra komandalarda məşqçilik etmək hüququ qazanırlar. III səviyyəli (A kateqoriyası) məşqçilik lisenziyası və ya sertifikatı olan məşqçilərdən “aktiv lisenziya” statusu əldə etmək üçün üzvlük prosedurlarını tamamlamaları tələb olunur.

**Maddə 2.4** - Bu Məşqçilərin üzvlülük lisenziyaları, mövsüm ərzində hansı liqada və hansı vəzifədə yer ala biləcəkləri bu Reqlamentin **Əlavə 1** də qeyd olunub.

**Maddə 2.5**. -ABL Çempionatında iştirak edəcək məşqçilər və köməkçi məşqçilər üçün müqavilə tələbi var. Digər liqalarda iştirak edəcək məşqçilərin müqavilə öhdəliyi yoxdur.

**Maddə 2.6.** – ABL Reqlamentində yer alan cəza şərtləri (cəza rüsumları) digər Liqalarda (Uşaq Gənclər Basketbol liqası, Tam Gənc Basketbol liqası) fəaliyyət göstərən məşqçilər üçündə qüvvədədir, ABL-dən fərqli olaraq ABL Reqlamentində yazılan cərimə məbləğinin 50 % tətbiq olunacaq.

**Maddə 2.7.** – Azərbaycan vətəndaşı olmayan məşqçilər Tam Gənc Liqasında və Uşaq Gənclər Basketbol Liqasında məşqçilik edə bilər. Məşqçilik edə bilmələri üçün Azərbaycan məşqçilik lisenziyası yaxud mənsub olduğu ölkəyə aid olan( bir yarış mövsümü keçərlidir) və ya FİBA dan məşqçilik sənədi olması öhdəliyi var.

**Maddə 2.8.** – Azərbaycan Milli komandasında ən az 10 oyun və ya FİBA ya bağlı ölkələrin ən yüksək liqalarında ən azı beş (5) il lisenziyalı olaraq basketbol oynamış şəxslər lazımı sənədlər ilə müraciət edərək bir (1) yarış mövsümü ərzində (C) kateqoriyalı lisenziya əldə etmə haqqı qazanır.

**Maddə 2.9.** – Azərbaycan İdman Akademiyasının və digər universitetlərin “Basketbol məşqçiliyi” fakultəsini bitirmiş şəxslərdə federasiya tərəfindən təşkil olunmuş məşqçilik seminarının imtahanından kateqoriya ala biləcək nəticəni toplamalıdırlar. Məşqçilik seminarında iştirak etmələri məcburi deyil, seminar sonunda imtahanda iştirak etməlidirlər.

**Maddə 2.10. -** Tətbiq hazırlığında iştirak edəcək və lisenziya alacaq namizədlər 2025-2026 mövsümündən etibarən aşağıdakı şərtlərə tabe olacaqlar:

a) Təhsildə ən azı tam orta məktəb məzunu olan

b) 18 yaşdan yuxarı olmaq.

c) İdman və məşqçilik karyerasında son 3 ildə bir dəfəyə 6 aydan çox və ya 2 ildən çox cəza almamış olma.

d) qəsdən törətdiyi cinayətə görə 1 ildən artıq müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmədikdə.

e) Eşitmə qüsuru olan şəxslərlə işarə dili ilə ünsiyyət qura bilsələr və ya eşitmə cihazı ilə eşidə bilsələr, məşqçilik lisenziyası üzrə təlimlərdə iştirak edə və sertifikat ala bilərlər.

f) Məşqçilik seminarlarında iştirak etmək üçün tələb olunan sənədlər:

ABF 2025/2026

1.Şəxsiyyət vəsiqəsinin surəti

2.Foto şəkil 2 ədəd (3x4)

3.Təhsili haqqında sənədin surəti

4.Sağlamlıq haqqında arayış

**2025-2026 mövsümündən**

**Maddə 2.11.** – Hər mövsüm əvvəllində lisenziyasını alıb məşqçilik etmək istəyən məşqçilərə lisenziya rüsumunun məbləği mövsümün əvvəlində ABF tərəfindən elan ediləcəkdir.

**Maddə 2.12.** – Fəaliyyət göstərdikləri müddətdə Azərbaycan Respublikası Qanunlarına və Normativ aktlara və etik davranış Qaydalarına, FİBA tərəfindən tətbiq edilən Fair-Play, Code of Conducts Qaydalarına riayət etmə məcburiyyətindədirlər.

**Maddə 2.13.** - kateqoriyalar arasında keçid;

a) Hər mövsümdə iki dəfə keçirilə bilən məşqçi seminarında namizədlərin qiymətlərinə uyğun olaraq müəyyən edilir.

b) İki (2) mövsümdən sonra seminarlarda iştirak etməyən və üzvülüyü olmayan məşqçilərin kateqoriyası aşağı səviyyəyə endirilir.

**Madde 2.14.** – Məşqçilik seminarının sonunda ediləcək imtahana və imtahan qiymətlərinə 15 gün ərzində yazılı etiraz edə bilərlər.

**III.Yekun müddəalar**

**Maddə 3.1.** Bu Təlimatın icrası zamanı yaranan və bu Təlimatda nəzərdə tutulmayan hallarda; Tədris Şurasının təklifi ilə problemlərin həlli ilə bağlı qərarlar qəbul etmək İdarə Heyətinin səlahiyyətindədir.

**Sənədlərin mühafizəsi**

**Maddə 3.2.** -Müqavilə əməliyyatları Federasiya tərəfindən həyata keçirilir və müvafiq sənədlər burada saxlanılır. Baş məşqçinin son beş (5) mövsümə aid sənədləri arxivdə saxlanılır. Göstərilən müddətdən köhnə sənədlər varsa, sənədlər kompüter mühitinə keçirildikdən sonra əslləri (müqavilə istisna olmaqla) məhv ediləcək və bu proseslə əlaqədar tərəflər heç bir tələb irəli sürə bilməzlər

ABF 2025/2026

# Əlavə 1

| Kateqoriya | Vəzifə | Milli (kişi, qadın) | Milli (Gənclərdən ibarət yığma) | ABL | QBL | UGBL | Digər liqalarda |
|---|---|---|---|---|---|---|---|
| 1. Kateqoriya (C) | Baş məşqçi | | | | ✓ | ✓ | ✓ |
| | Köməkçi məşqçi | | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| 2. Kateqoriya (B) | Baş məşqçi | | ✓ | | ✓ | ✓ | ✓ |
| | Köməkçi məşqçi | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| 3. Kateqoriya (A) | Baş məşqçi | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| | Köməkçi məşqçi | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |

**Qeyd:** Əlavə 1 də göstərilən tələblər 2025-2026 mövsümünün sonuna qədər qüvvədədir. (31.07.2026)

ABF 2025/2026

## IV. Üzvlülük rüsumu

**Maddə 4.1.** Məşqçilik fəaliyyətinin davamlılığının təmin edilməsi və müvafiq mövsüm üçün lisenziyanın təsdiqlənməsi məqsədilə üzvlük rüsumlarının kateqoriyalar üzrə müəyyən edilmiş qaydalara uyğun şəkildə ödənilməsi zəruridir. Hər bir məşqçi, lisenziyasının aktiv qalması üçün illik əsasda bu rüsumu ödəməlidir. Bu mexanizm, peşəkar standartların qorunmasına və idman sahəsində şəffaf idarəetmənin təmininə yönəldilmişdir.

**Maddə 4.1.1.** Azərbaycan Basketbol Federasiyası tərəfindən tətbiq olunan məşqçilik lisenziyası sisteminə əsasən, müvafiq mövsüm üçün lisenziyanın aktiv saxlanılması məqsədilə xarici vətəndaşlar da illik üzvlük rüsumunu ödəməlidirlər. Bu tələbin vahid şəkildə tətbiqi, federasiyanın fəaliyyətində bərabərlik və şəffaflıq prinsiplərinin qorunmasına xidmət edir.

**Maddə 4.1.2.** Xarici məşqçi öz ölkəsində etibarlı məşqçilik lisenziyasına malik olduğunu və ya beynəlxalq basketbol qurumu olan FİBA tərəfindən verilmiş rəsmi lisenziyanı təqdim edərsə, həmin şəxs illik üzvlük rüsumunun ödənilməsindən azad edilir.

**Maddə 4.2.** İllik üzvlük rüsumu:

C kateqoriyasına aid məşqçilər üçün illik üzvlük rüsumu 30 (otuz) AZN,

B kateqoriyasına aid məşqçilər üçün illik üzvlük rüsumu 50 (əlli) AZN,

A kateqoriyasına aid məşqçilər üçün illik üzvlük rüsumu 100 (bir yüz) AZN

**Maddə 4.3.** Lisenziya sisteminin strukturu idman sahəsində mütəxəssislərin fəaliyyətinin davamlı şəkildə tənzimlənməsinə, onların peşəkar bacarıqlarının inkişaf etdirilməsinə və ümumilikdə sahənin keyfiyyət standartlarının yüksəldilməsinə xidmət edir. Bu çərçivədə ödənilən illik üzvlük rüsumları yalnız lisenziyanın aktiv saxlanması üçün deyil, eyni zamanda praktiki təlimlərin və metodiki seminarların təşkilinə yönəldilir. Rüsum haqlarının bu şəkildə istifadəsi, məşqçilərin bilik və bacarıqlarının sistemli şəkildə yenilənməsinə şərait yaradaraq, idman təlim-tədris prosesinin daha effektiv və müasir yanaşmalarla həyata keçirilməsini mümkün edir.